**UOT 791.2**

**Abbasağa Fazil oğlu Əlizadə**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
**Doktorant**
**E-mail: abbasaga.elizade.1995@mail.ru**

# KİNODA EKSPRESSİONİZM

**Xülasə:** Məqalədə psixoloji dram janrının yaranmasına və inkişafına təkan verən ekspressionizm cərəyanından bəhs olunur. Məhz ekspressionist ruhda çəkilən “Praqalı tələbə”, “Qolem”, “Homunkulus”, “Başqa” filmləri təhlil edilib. Bu təhlil daxilində alman kinosunda öz əksini tapan dövrün ictimai-siyasi problemlərindən də bəhs olunur. Bu problemlərin yol açdığı şəxsiyyət ikiləşməsi mövzusu təhlilin əsas xəttini təşkil edir.

**Açar sözlər:** ekspressionizm, psixoloji dram, alman kinosu, “Praqalı tələbə”, “Qolem”, “Homunkulus”, “Başqa”

İncəsənətin dinamik şəkildə tərəqqi edən növlərindən biri də kinematoqrafiyadır. Bu səbəbdən XX əsrin əvvəllərindən bu günə kimi kino janrlarının təkamül prosesində gözəçarpan inkişaf tendensiyası zəruri bir proses kimi dəyərləndirilə bilər. Müşahidə olunan irəliləyişlərlə bağlı qeydlərə rus kinoşünası S.V.Komarovun “Xarici kinonun tarixi” kitabında da rast gəlmək mümkündür. O, janr sisteminin kino ilə paralel olaraq inkişaf etməsini Fransa kinosunun yüksəlməsi ilə əlaqələndirir. Bu inkişaf prosesində Şarl Pate, Leon Qomon və Lyumer qardaşlarının səylərini xüsusi vurğulayır [4]. Janr özünəməxsus bir koddur və bu kod vasitəsilə rejissor tamaşaçıların emosional gözləntilərinin parametrlərini müəyyən edir [2, s.65]. Kinematoqrafiyada əsas janrların formalaşması təxmini 1920-1950-ci illərə təsadüf edir [4]. Belə janrlardan biri də psixoloji dram janrıdır. Psixoloji dram janrından bəhs edərkən alman kino tarixinə, ekspressionizmə nəzər salmaq mütləqdir. I Dünya müharibəsi və ondan sonra yaranan inqilabı hərəkatlar alman mədəniyyətində özünəməxsus yer tutdu. Beləcə baş verən hadisələr ekspressionizmin yaranmasına və geniş vüsət almasına gətirib çıxartdı. Alman kino tənqidçisi Ziqfrid Krakauer “Kaliqaridən Hitlerə kimi. Alman kinosunun psixoloji tarixi” kitabında ekspressionizmə xüsusi yer ayırır. Ekspressionizm (lat. Expressio, “ifadəlilik”) – modernizm epoxasının Avropa incəsənətində yeni bir istiqamətidir. XX əsrin ilk onilliyində meydana gələn ekspressionizm Almaniya və Avstriyada geniş vüsət aldı. Ekspressionizm modernizmdən fərqli olaraq gerçəkliyi deyil, müəllifin daxili aləminin emosional durumunu göstərməyə

çalışır. Yarandığı andan incəsənət sahələrinin bir çox növlərinə sirayət etməsinə baxmayaraq, kinematoqrafiyada özünü daha qabarıq şəkildə büruzə verdi [6].

Ziqfrid Krakauer kinoincəsənətin əsas estetik xassəsini reallığın əksində görür [1, s.3]. Alman kinosunun ilk onilliklərində çəkilən filmlərin təhlili vasitəsilə aşkara çıxan ideologiyanı həmin dövrün sosial-siyasi dünyagörüşünün bəhrəsi kimi dəyərləndirmək olar. Milli şüurla bağlı olan dəyərlər də öz əksini ideologiyada tapır. Milli kino xalqın milli şüurunu, psixologiyasını dolayısı yolla deyil, bir başa əks etdirir. Almaniyada baş verən tarixi hadisələr öz əksini kütlə psixologiyasında tapdı. Bu mövzuda çəkilən filmlər müəyyən məsləkləri deyil, məhz psixoloji əhval-ruhiyyəni, kollektiv şüurun daha dərin qatlarını əks etdirir [1, s.8]. Film daxilində əks olunan hadisələrin psixoloji xarakteristikası ətraf aləmdə baş verən sosial-siyasi proseslərin səbəbindən daha çox nəticəsi kimi dəyərləndirilə bilər.

XX əsrin əvvəlində Almaniyada baş verən sosial-siyasi, iqtisadi hadisələrin arxasında alman xalqının psixoloji həyatının çətin və görünməz tərəfləri dayanırdı. Həmin dövrdə çəkilən filmlər vasitəsilə qeyri-aşkar məqamlar ifşa olunurdu. Belə filmlərdən biri də 1913-cü ildə Stellan Ruye və Paul Veqener tərəfindən çəkilən “Praqalı tələbə” filmidir. Beləcə, bu film vasitəsilə ilk dəfə olaraq alman kinosunun vəsvəsəsinə çevrilən bir mövzunun əsası qoyuldu – qorxu ilə qarışmış dərindən özünü tanıma.

“Praqalı tələbə” filmində yoxsul tələbə Bolduin bədniyyətli, insan cildində olan Skapinelli adlı şeytanla qeyri-adi bir müqavilə imzalayır. Müqaviləyə əsasən Skapinelli Bolduinə söz verir ki, onu evləndirib, zəngin birinə çevirəcək. Amma belə bir müqavilənin qarşılığında Bolduini hər yerdə oxşarı müşayiət edəcək. Skapinellinin sehrli gücü vasitəsilə Bolduinin güzgüdən çıxarılan əksi müstəqil birinə çevrilir. Bundan sonra filmdə hadisələr dinamik şəkildə cərəyan etməyə başlayır. Bolduinin oxşarı sadəcə onu müşayiət etməklə kifayətlənmir. O, Bolduinin əvəzinə qərarlar verib, demək olar ki, onun həyatını yaşayır. Sevgi naminə təşkil olunan dueldə də Bolduini onun əkizi əvəz edir. Beləcə hadisələrin gedişatı heç də Bolduinin düşündüyü kimi getmir. Çıxılmaz durumda qalan baş qəhrəman əkizini öldürmək qərarına gəlir. Güzgüdəki əksinə atəş açan Bolduin nəticə olaraq özünü öldürür. Bəlli məsələdir ki, onun oxşarı qismində peyda olan insan elə öz daxilində gizlənən başqa bir şəxsiyyətdir. Məhz öz mənfəətini güdən gizli şəxsiyyətinə görə Bolduin şeytanla saziş imzalayır. Ayrı həyat yaşayan bu oxşarın əsas məqsədi Bolduinin daxilindəki xoşniyyətli insanı məhv etməkdir. Bolduinin daxilindəki gizli şəxsiyyətlə üzbəüz qalması baş qəhrəmanın şəxsiyyət ikiləşməsindən xəbər verir. Öz ruhunun haçalanmasından xəbər tutan Bolduin anlayır ki, ruhu şər qüvvələri dəstəkləyən yarısının yanındadır.

Filmdə nəql olunan hadisələrin mənzərəsi də Bolduinin daxili kimi ikiləşib. Bir tərəfdən elə təəssürat yaranır ki, sanki baş qəhrəman ruhi xəstədir. Görünən mənzərənin digər bir tərəfi isə ölkədə hökm sürən mövcud rejimin, problemlərin fərd vasitəsilə təsviridir. Ayrı-ayrı zaman kəsiyində baş verən sosial-siyasi problemlər müxtəlif ekran əsərlərində öz əksini müəyyən fərdlərdə tapır. Baş qəhrəmanın köməkliyi ilə insanları narahat edən problemlərin mahiyyətinə varmaq olur. Analoji problemlərin əks olunduğu filmlərdə baş qəhrəman hər bir vəchlə onu əhatə edən çərçivələri qırıb, öz daxili mənliyini qoruyub saxlamağa çalışır. Bolduin də onu narahat edən məsələlərin həlli yolunda eyni xətlə hərəkət etdi. Lakin sonunda bacarmayıb, daxilindəki gizli şeytana təslim oldu. Qeyd olunduğu kimi, bu yalnız Bolduinlə bağlı problem deyil. Bu alman xalqının keçirdiyi hisslər, daxili sarsıntılar idi. Onun yaşadığı psixoloji kazusda xarici hadisələr mirajdır və bu miraj daxilində baş qəhrəmanın daxili aləmi əks olunub. “Praqalı tələbə” filminin final səhnəsində baş qəhrəmanın özünü öldürməsi qarşısıalınmaz faciənin mövcudluğundan xəbər verirdi.

Mistik ab-hava, sehrli aləm Paul Veqenerin yaradıcılığında əsas xətt olaraq müşahidə olunmaqdadır. 1915-ci ildə Paul Veqenerin Henrik Qaleyenlə birgə çəkdiyi “Qolem” filmində də analoji mistik ab-hava hökm sürür. Qolem haqqında əfsanənin motivləri bu ekran işində süjet xəttinin əsasını təşkil edir. Praqalı ravvin Löv tərəfindən gildən düzəldilmiş Qolem heykəlinin sinəsində sehrli bir işarə var və onun vasitəsilə cansız heykəl canlı varlığa çevrilir. “Qolem” filmində köhnə sinaqoqun yaxınlığında quyu qazan fəhlələr heykəl aşkar edib onu antikvar əşyaların satıldığı mağazaya təhvil verirlər. O, isə öz növbəsində Qolemin canlandırılması haqqında hekayəni tapır və heykələ həyat bəxş edir. Bundan sonra filmdə hadisələr artıq orta əsr yəhudi əfsanəsi dövründə deyil, real mühitdə təsvir olunur. Heykəl canlandıqdan sonra onunla ikinci dəfə metamorfoza baş verir və o, aşiq olur. Cavabsız sevginin qarşılığında öz tənhalığını dərk edən Qolem təslim olmaq istəmir və qarşısına çıxan hər şeyi məhv edir. Bütün bu dəhşətli qəzəbin sonunda isə o, qüllədən yıxılaraq gil qırıntılarına çevrilir.

Tamamilə ayrı həyat tərzi yaşayan şəxslər çox vaxt fərdi psixologiyalarına görə fərqlənirlər [5]. Lakin Alman kinosunun ilk onilliklərində çəkilən filmlərə nəzər yetirdikdə, bunun belə olmadığını görürük. Çünki həmin dövr çəkilən filmlərin əsas motivi baş qəhrəmanın özünü tanımasından ibarətdir və bu proses kütləvi bir hal alır. Heç təsadüfi deyil ki, Qolem hekayəsinin motivləri 1916-cı ildə Otto Rippert tərəfindən çəkilən altı hissəli filmdə ortaya çıxır. Qolem kimi Homunkulus da süni bir varlıqdır. Məşhur professor Hansen tərəfindən ərsəyə gətirilən Homunkulus nadir intellektə malik bir insana çevrilir. Lakin öz yaranma sirrini öyrəndikdən sonra

sanki daxilində bir Qolem peyda olur. Qolem kimi sevgi axtarışına çıxan Homunkulus ətrafdakı insanların hiddətinə rast gəlir. Çünki o, nə qədər çalışsa da əsl həqiqəti gizlədə bilmir. Homunkulusun itinin insanlar tərəfindən öldürülməsi cərəyan edən hadisələrin istiqamətini tamamilə dəyişir. O, amansız diktatora çevrilərək ölkəni qəddarcasına idarə etməyə başlayır. Bundan sonra baş qəhrəmanın həyat məramı sanki Hitlerin siyasi karyerasından xəbər verir. "Homunkulus" və "Qolem" filmlərində baş qəhrəmanların psixoloji cəhətdən yaşadıqları pozuntu onların qeyri-təbii doğuşları ilə izah olunur. Hər iki qəhrəman cəmiyyətdən təcrid olunduğunu dərk edir. Lakin Qolemdən fərqli olaraq Homunkulus sanki bunun tam mahiyyətinə varmağı bacarır. O, anlayır ki, sevgidən məhrumdur və bu onda natamamlıq kompleksi yaradır. Natamamlıqdan doğan psixoloji sarsıntılar isə onun gələcək həyatında qəbul edəcəyi qərarlara birbaşa təsir edir. Freydin səbəb-nəticə əlaqələri teoriyasına əsasən deyə bilərik ki, "Qəhrəmanın xarakteri keçmişdə baş verən hadisələr əsasında formalaşır." Keçmişdə mövcud olan psixoloji zərbələr qəhrəmanın bugünkü davranışlarını müəyyən edir [3, s.29]. Film, alman filosofu Maks Şelerin bütün dünyada Almaniyaya nifrətin səbəbləri haqqında açıq mühazirələri oxuduğu bir vaxtda ekranlara çıxdı. Almanlar həqiqətən də Homunculusa bənzəyirdilər: Almaniyada baş verən sosial-tarixi hadisələrin nəticəsində insanlar natamamlıq kompleksindən əziyyət çəkirdilər və bu, alman xalqının özünüdərkinə mənfi təsir göstərdi [1, s.23]. Beləcə onlar cəmiyyətdən təcrid olub, uşaq kimi öz qeyri-real dünyalarını qurmağa meylli olurdular. Hər iki filmin qəhrəmanı mehvedici, sado-mazoxist məramlarını əsas tutaraq hərəkət edirlər. Qolem və Homunkulusun ölümü də yaranışları kimi qeyri-təbii olur. Bu filmlərin qəhrəmanları daxili iztirablarını, narahatlıqlarını nə qədər həll etməyə çalışsalar da buna nail ola bilmirlər. Yaşadıqları çətinlik, psixoloji sarsıntı onların gələcək həyatının müqəddəratını həll edir. Şəxsiyyət ikiləşməsi mövzusu eyni ərəfədə çəkilən filmlərdə oxşar tərzdə nümayiş olunsa da, "Başqa" filmində bunun əksini görmək mümkündür. 1913-cü ildə Pol Lindaunun eyniadlı əsəri əsasında Maks Mak tərəfindən çəkilən "Başqa" filmində bu dəfə doktor Cekilı vəkil Qallers əvəz edir. Evdə təşkil olunan ziyafətlərin birində o, şəxsiyyət ikiləşməsi haqqında hekayəyə kinayə ilə yanaşır. Filmdə hadisələr məhz elə bu mövzunun üzərində cərəyan edir. Qallersin daxilində inanmadığı və gözləmədiyi şəxsiyyət ikiləşməsi baş verir. Nəql olunan hadisələrin fonunda sevgi mövzusu da ənənəvi olaraq qalmaqdadır. Şəxsiyyət ikiləşməsi yaşayan Qallers Bolduin kimi haçalanmış şüurunun qurbanına çevrilə və ya Homunkulus kimi özünü cəmiyyətdən təcrid edib, qəddar əməlləri ilə yaddaşlara həkk oluna bilər. Lakin Qallers vasitəsilə şəxsiyyət ikiləşməsi mövzusu "Başqa" filmində müvəqqəti psixoloji proses

kimi nümayiş olunub. Çünki Qallers müalicə olunaraq sağalır və onun yaşadığı psixoloji sarsıntı hər hansısa faciəvi sonluğa gətirib çıxartmır.

Nəticə olaraq demək olar ki, ekspressionist ruhda çəkilən bu filmlərdə kollektiv şüurun psixoloji pozuntularına səbəb olan problemlər öz əksini tapırdı. Mövcud problemlərə "Başqa" filmində də rast gəlmək mümkündür. Lakin "Başqa" filminin yuxarıda adları çəkilən filmlərdən fərqli olaraq nikbin əhval-ruhiyyə ilə bitməsi mövcud problemlərə fərqli yöndən baxmağa imkan verir.

## Ədəbiyyat siyahısı:

1. Зигфрид Кракауэр, "От Калигари до Гитлера. Психологическая история немецкого кино", Деннис Добсон Лтд, Нью Йорк, 1947.
2. Н.А.Агафонова, "Общая теория кино и основы анализа фильма", Тесей, Минск, 2008.
3. Салахиева-Талал Т. "Психология в кино", Альпина Диджитал, 2019.
4. https://science-education.ru/ru/article/view?id=13755
5. https://www.psychologos.ru/articles/view/osobennostizpt-otlichiya-lyudey-drug-ot-druga
6. https://www.culture.ru/s/slovo-dnya/ekspressionizm/

**Аббасага Фазиль оглы Ализаде**

## ЭКСПРЕССИОНИЗМ В КИНО

**Резюме:** В статье говорится о течении экспрессионизма, которое дало толчок к созданию и развитию жанра психологической драмы. Проанализированы фильмы снятые в экспрессионистском духе как "Пражский студент", "Голем", "Гомункулус", "Другой". В статье также обсуждаются социально-политические проблемы того времени, отраженные в немецком кинематографе. Тема раздвоения личности, вызванная этими проблемами, составляет основную линию анализа.

**Ключевые слова:** экспрессионизм, психологическая драма, немецкое кино, "Пражский студент", "Голем", "Гомункулус", "Другой".

**Abbasaga Fazil oghlu Alizade**

## EXPRESSIONISM IN CINEMA

**Summary:** The article talks about the course of expressionism, which gave impetus to the creation and development of the genre of psychological drama. Films shot in the expressionist spirit as "Prague Student", "Golem", "Homunculus", "The Other" are analyzed. This analysis also discusses the socio-political issues of the time as reflected in German cinema. The theme of split personality caused by these problems constitutes the main line of analysis.

**Key words:** expressionism, psychological drama, German cinema, “The student of Prague”, “The Golem”, “Homunculus”, “The Other”.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 16.09.2022**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:**
**sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Rafiq Quliyev**